

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 243 (21.144)

20 dekabr 2014-cü il, şənbə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Aksel Vexin etimadnaməsini qəbul edib.

Diplomat etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Avstriyalı diplomat ölkəsinin Azərbaycan ilə əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən enerji və turizm sahələrində genişləndirilməsində maraqlı olduğunu bildirdi.

Prezident İlham Əliyev ikitərəfli əlaqələrin inkişafında yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunaraq Avstriya Prezidenti Haynts Fişerlə keçirdiyi görüşləri və apardığı səmərəli müzakirələri məmnunluqla xatırladı. Azərbaycan ilə Avstriya arasında əməkdaşlığın kənd təsərrüfatı, tikinti və informasiya-kommunikasiya texnologiyaları sahələrində genişləndirilməsi məsələlərinin qarşılıqlı maraq doğurduğunu qeyd edən dövlətimizin başçısı Avstriya şirkətlərinin ölkəmizdə uğurla fəaliyyət göstərdiyini dedi. Prezident İlham Əliyev səfir Aksel Vexin ölkəmizdəki diplomatik fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyinə ümidvar olduğunu bildirdi.

## Plenum iştirakçıları Naxçıvanın təhsil və mədəniyyət müəssisələri, tarixi abidələri ilə tanış olublar





***Naxçıvanda keçirilmiş Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin II Plenumunun iştirakçıları dünən Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsində olublar.***

Universitetin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyid ali məktəbin strukturu, təşəkkülü, inkişafı, professor-müəllim heyəti və tələbə kontingenti barədə geniş məlumat verib.

Qeyd olunub ki, universitetin 110 hektarlıq ərazisində ucaldılan bir-birindən yaraşıqlı tədris korpusları müasir memarlıq kompleksi kimi diqqəti cəlb edir. Burada digər ixtisaslar kimi, memarlıq ixtisası üzrə fənlər də dünya standartlarına cavab verəcək səviyyədə, müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə tədris olunur. Ali məktəbdə mövcud olan sürətli internet resursları, tezliklə istifadəyə veriləcək elektron təhsil şəbəkəsi müxtəlif dünya universitetləri ilə virtual əməkdaşlığa, onlayn simpozium və konfransların təşkilinə, təcrübə mübadiləsinə xidmət edəcək. Universitetdə 2001-ci ildən etibarən memarlıq üzrə yüksəkixtisaslı mütəxəssislər hazırlanır. Hazırda təhsilin bakalavr, magistratura və doktorantura pillələri üzrə burada 200-ə yaxın tələbə təhsil alır.

Qonaqlar auditoriyalarda, "Memarlıq və incəsənət tarixi" kabinəsində və sərgi salonunda tədris prosesi, tələbə memarların yeni layihələri ilə tanış olublar. Memarlıq və mühəndislik fakültəsinin dekanı, texnika üzrə elmlər doktoru Cavanşir Zeynalov buradakı maket və kompozisiyalar barədə məlumat verərək bildirib ki, tələbələrin əl işləri bir sıra beynəlxalq sərgilərdə uğurla nümayiş olunub.

"Memarlıq" ixtisasının tələbələri ilə görüş zamanı Azərbaycan Memarlıq və İnşaat Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, professor Nərgiz Abdullayeva Azərbaycanın zəngin memarlıq ənənələrindən, Naxçıvan memarlıq məktəbinin dünyada məşhur nümunələrə malik olmasından, müasir memarlıq və şəhərsalma sahəsində qazanılan nailiyyətlərdən bəhs edib. Onun çıxışında universitetlərarası təcrübə mübadiləsi, müştərək layihələrin təşkili ilə bağlı maraqlı təkliflər səsləndirilib. Nərgiz Abdullayeva gənc memarları Azərbaycan Memarlar İttifaqının yeni yaradılan Naxçıvan Bölməsinin fəaliyyətində yaxından iştirak etməyə çağırıb.

Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə memarlığın inkişafına qayğı ilə yanaşan ümummilli lider Heydər Əliyevin vətəni, qədim sivilizasiyanın beşiyi Naxçıvanda qədim və orta əsrlər dövrünə məxsus nadir tarixi abidələrin olmasından danışıb, qurumun Naxçıvanda keçirilən növbəti plenumunun memarlığın inkişafı və memarlar arasında qarşılıqlı əlaqələrin qurulması baxımından faydalı olacağını qeyd edib.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin professoru Ramiz Əbdülrəhmanov "memarlıq" ixtisasının tədrisi ilə bağlı əməkdaşlığın əhəmiyyətindən bəhs edib, müasir Azərbaycanın gələcəkdə daha füsunkar və gözəl görünməsinə xidmət etmələri üçün tələbələrə zəngin biliyə və təcrübəyə yiyələnməyi arzulayıb, sərgideki işləri yüksək qiymətləndirib.

Sonda Azərbaycanın tanınmış memarları tələbələrə beşcildlik "Azərbaycan memarlıq tarixi" kitabını, monoqrafiya və dərsliklər hədiyyə ediblər.

Naxçıvan Dövlət Universitetinin Memarlıq kafedrasının müdiri, memarlıq üzrə fəlsəfə doktoru, dosent Qadir Əliyev və memarlıq üzrə fəlsəfə doktoru, dosent Gülnarə Qənbərova da müəllifləri olduqları yeni elmi nəşrləri həmkarlarına təqdim ediblər.

Kəngərli rayonunun Qarabağlar kəndində yerləşən Qarabağlar türbəsində olan qonaqlara məlumat verilib ki, türbə orta əsrlərə aid tarixi-memarlıq abidəsidir. Memarlıq kompleksinə daxil olan türbədən başqa, burada qoşa minarə və onların arasında yerləşən bina qalıqları var. Qoşa minarənin XII əsrin sonu, XIII əsrin əvvəllərində tikildiyi ehtimal olunur. Minarələri bir-birinə bağlayan baştağ isə XIV əsrə aiddir. Baştağın üzərində Elxani hökmdarı Hülakü xanın arvadı Quti xatının adı yazıldığından onun Quti xatının şərəfinə tikildiyi güman edilir. 1928-ci ildə "Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti"nin elmi katibi M.Mirheydərzadə qoşaminarəli baştağın kitabəsində ərəb dilində bu sözlərin yazıldığını müəyyən edib: "Allahın bu nişanəsi türkman Quti xatındır".

"Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksində olan qonaqlara məlumat verilib ki, ziyarətgah təbii mağarada yerləşir, ərəb dilində "mağara sahibləri" deməkdir. "Qurani-Kərim"də "Əl-Kəhf" surəsinin 9-27-ci ayələrində Allahdan başqasına inananlardan ayrılıb mağaraya sığınan 7 gəncin 300 ildən artıq yatdıqlarından, oyandıqdan sonra başlarına gələnlərdən bəhs edilir. "Qurani-Kərim"də mövcud olan hadisə müəyyən dəyişikliklərlə Naxçıvandakı Əshabi-Kəhflə bağlı rəvayətlərdə də öz əksini tapıb.

Bildirilib ki, ümummilli lider Heydər Əliyevin tapşırığı və himayəsi ilə Əshabi-Kəhfdə abadlıq-bərpa işləri aparılıb, ziyarətgahın girişində bu haqda məlumat verən kitabə qoyulubdur. Kitabədə deyilir: "Əshabi-Kəhf ziyarətgahında bərpa və abadlıq işləri 1998-ci ildə Azərbaycan Prezidenti möhtərəm Heydər Əliyevin tapşırığı və himayəsi ilə görülmüşdür". Son illərdə Əshabi-Kəhf ziyarətgahının ərazisində yenidənqurma, bərpa və abadlıq işləri aparılıb. Bərpa və abadlıq işləri zamanı burada zəvvarlar üçün yaxşı şərait yaradılıb, 13 kilometr məsafədə rahat yol salınıb, yolboyu yaşıllaşdırma işləri aparılıb, məscid tikilib. Hazırda buraya Azərbaycanın başqa bölgələrindən və xarici ölkələrdən zəvvarlar, turistlər və qonaqlar gəlir.

Qonaqlar "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində də olublar.

Məlumat verilib ki, Naxçıvanqalanın bərpasına 2010-cu ildə başlanılıb, tarixi ərazidə yenidənqurma işləri aparılıb, qalanın əvvəlki görkəmi özünə qaytarılıb. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il iyunun 5-də imzaladığı Sərəncamla "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılıb.

Həmin gün qonaqlar Duzdağ Fizioterapiya Mərkəzi ilə də tanış olublar.

## Məktəblərlə muzeylər arasında virtual dərslər davam etdirilir





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamı muxtar respublikada elektron təhsilin tətbiqinin genişləndirilməsinə, təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılmasına, tədrisin əyaniliyinin və səmərəliliyinin daha da artırılmasına böyük imkanlar yaradıb. Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi və Təhsil Nazirliyi distant təhsilin tətbiqi ilə bağlı muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələrin təşkilini davam etdirməkdədir.

Dekabrın 19-da Cəmşid Naxçıvanskinin ev-muzeyi ilə muxtar respublikada fəaliyyət göstərən məktəblər arasında interaktiv əlaqə yaradılaraq canlı dərs aparılıb. Muxtar respublikamızda fəaliyyət göstərən 200-ə yaxın tam, orta ixtisas və peşə məktəblərinin şagird, müdavim və tələbələri videobağlantıya qoşulublar. Onlar elektron lövhə vasitəsilə muzeydə keçilən dərsi izləyib, Cəmşid Naxçıvanskinin həyat və fəaliyyəti ilə daha yaxından tanış olublar.

Naxçıvan Musiqi Kollecinin tarix müəllimi Aytən Məmmədova məşhur Naxçıvan xanları sülaləsinin sonuncu – altıncı generalı, briqada komandiri Cəmşid Naxçıvanskinin həyatı və fəaliyyəti haqqında məlumat verib. Qeyd olunub ki, 1895-ci il avqustun 10-da anadan olan Cəmşid Naxçıvanski Birinci Dünya müharibəsində müsəlmanlardan təşkil olunmuş süvari eskadronunun komandiri olub, Brusilov cəbhəsinin yarılmasında iştirak edib, 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunub. Avstriya-Rumıniya cəbhəsində üç dəfə yaralanan C.Naxçıvanski igid süvari zabit kimi gümüş silahla mükafatlandırılıb, müxtəlif dərəcəli "Anna" və "Stanislav" ordenləri ilə təltif edilib. Müharibədən sonra C.Naxçıvanski başçılıq etdiyi süvari alayı ilə birgə Bakının düşmənlərdən təmizlənməsində iştirak edib, Azərbaycanın müstəqilliyi uğrunda döyüşlərdə inamla vuruşub.

Şagirdlər elektron lövhə vasitəsilə muzeyin əməkdaşı Zenfira Adıgözəlovanın bələdçiliyi ilə eksponatlarla tanış olublar.

Onu da qeyd edək ki, bu il 15 sentyabr – "Bilik Günü" münasibətilə Şərur Texniki-Peşə və Sürücülük Məktəbinin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə distant təhsilin təqdimatı əsasında interaktiv əlaqə yaradılaraq məktəblərlə muzeylər arasında canlı dərs aparılıb, elektron təhsilin imkanlarından istifadənin əsası qoyulub. Həmin gündən indiyə kimi Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyi, Naxçıvan Dövlət Tarix Muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi, Hüseyn Cavidin ev-muzeyi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi və başqa muzeylərlə interaktiv əlaqə yaradılaraq açıq dərslər keçilib.

**Xəbərlər şöbəsi**

# Heydər Əliyev irsi: günümüzün və gələcəyimizin istiqamətverici təlimi

***Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkəmiz müstəqillik və tərəqqi yolunda inamla addımlamış, demokratik, dünyəvi, hüquqi və nüfuzlu dövlət kimi beynəlxalq münasibətlərdə layiqli yer tutmuşdur. Müstəqil respublikamızın belə uğurlu inkişafı ümummilli lider, dünya şöhrətli siyasi və dövlət xadimi Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətt və ölkə Prezidenti cənab İlham Əliyevin bu siyasi kursa sadiqliyi, onun yaradıcılıqla və müasir tələblərə uyğun həyata keçirilməsi ilə bağlıdır. Dahi rəhbər Heydər Əliyevin dövlətçilik təlimi və siyasi irsi bütün uğurlarımızın əsasını təşkil edir. Ona görə də bu siyasi irs öyrənilməli, tədqiq edilməli və gələcək nəsillərə çatdırılmalıdır.***




Ulu öndər Heydər Əliyevin həm Azərbaycan SSR-ə rəhbərliyi dövründə, həm də müstəqil Azərbaycanın Prezidenti kimi respublikamızın inkişafı və tərəqqisi naminə çoxşaxəli və məhsuldar fəaliyyəti, dövlətçilik təlimi və irsi Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərlinin bu yaxınlarda işıq üzü görmüş "Heydər Əliyev irsi – əbədiyaşar təlim" adlı fundamental monoqrafiyasında geniş təhlil edilmişdir.

Məlum olduğu kimi, bu il Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 ili tamam oldu. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 14 yanvar 2014-cü ildə imzaladığı Sərəncama uyğun olaraq, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ölkəmizdə, bir sıra xarici ölkələrdə (Polşa, Türkiyə, Rusiya, Bolqarıstan, Cənubi Afrika Respublikası və digər) yüksək səviyyədə qeyd olundu, elmi konfranslar keçirildi. Naxçıvanda keçirilən təntənəli yubiley mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak və çıxış etdi. Çıxışında cənab Prezident 90 il bundan əvvəl Naxçıvanın muxtariyyət statusu əldə etməsini "tarixi hadisə, diyarın strateji əhəmiyyətini əks etdirən bir qərar" kimi xarakterizə etdi.

Muxtar respublikanın 90 illiyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında 2014-cü il "Muxtariyyət ili" elan edildi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulan tədbirlər ilin sonunadək davam etdirilir. Professor F.Səfərlinin qeyd etdiyimiz monoqrafiyası yubiley münasibətilə hazırlanan əsərlərdəndir. Dörd fəsil və 24 yarım fəsildən ibarət olan kitabda görkəmli dövlət xadimi Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinin bir sıra məqamlarına diqqət yetirilmiş, Naxçıvan Muxtar Respublikasının yaradılmasının zəruriliyi əsaslandırılmış, milli dəyərlərimiz milli kimliyimiz kimi təhlil edilmiş və ulu öndərə həsr olunmuş monoqrafiyalar haqqında fikir və mülahizələr söylənilmişdir.

Monoqrafiyanın birinci fəsli əhatəliliyi və elmi əhəmiyyəti ilə diqqəti cəlb edir. Burada xalqımızın böyük oğlu Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü tədqiq edilmişdir. Məlumdur ki, ulu öndər Moskvada yüksək vəzifələrdən istefa verdikdən sonra Naxçıvana gəlmiş və 3 sentyabr 1991-ci ildə əhalinin xahiş və müraciətlərindən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsinə razılıq vermişdir. Ulu öndər blokadanın yaratdığı çətinliklərə baxmayaraq, Naxçıvanı xilas etmiş, Onun rəhbərliyi ilə mühüm qərarlar qəbul edilmiş, islahatlar həyata keçirilmişdir. Monoqrafiyanın bu fəslində dahi şəxsiyyətin Azərbaycanı müstəqilliyə hazırlaması və müstəqil Azərbaycan dövlətini yaratmasından, onu qoruyub əbədiləşdirməsindən, böyük qurtuluşdan, görkəmli dövlət xadiminin Azərbaycan xalqına miras qoyduğu irsdən, Naxçıvanın erməni işğalından xilas edilməsindən, milli-mənəvi dəyərlərimizə qayğıdan, Naxçıvanda elmin inkişafına yönələn tədbirlərdən, tarixçi kadrların hazırlanması və tarix elminin inkişafına ümummilli liderin fəaliyyətində xüsusi əhəmiyyət verməsindən, Azərbaycan tarixi məsələləri və "insan yaradıcılığının abidəsi" olan Gəmiqaya abidələrindən bəhs edilir.

Əsərdə tədqiq olunan problemlərdən biri Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi ilə əlaqədar olan məsələlərdir. İlk növbədə, muxtariyyət ərəfəsində Naxçıvanın ictimai-siyasi vəziyyəti, Naxçıvana erməni təcavüzü, bunun qarşısının alınmasında naxçıvanlıların rolu tədqiq edilir. B.Şahtaxtinskinin bu sahədəki fəaliyyəti təhlil edilir və Naxçıvana muxtariyyət statusunun verilməsində onun tarixi xidmətləri göstərilir. Naxçıvanın blokadasından bəhs edən müəllif haqlı olaraq göstərir ki, Naxçıvanın blokadası Zəngəzurun Ermənistana verilməsi ilə başlanmışdır. Məlumdur ki, Azərbaycanın o dövrkü rəhbərləri Zəngəzurla bağlı iki dəfə səhvə yol vermişdir. 23 noyabr 1919-cu ildə Azərbaycanla Ermənistan arasında bağlanmış müqaviləyə görə, Azərbaycan və Ermənistan hərbi qüvvələrini Zəngəzurdan çıxarmalı idi. Azərbaycan öz ordusunu Zəngəzurdan çıxarmış, Ermənistan isə əksinə, bura əlavə qüvvələr yeritmişdir. Ermənistanda Sovet hakimiyyətinin qurulması ilə əlaqədar (29 noyabr 1920) Azərbaycan hökuməti Zəngəzuru Ermənistana vermişdir. Beləliklə, Naxçıvan blokadaya düşmüş, Azərbaycanla sərhəd əlaqələrini itirmişdir.

Monoqrafiyaya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muxtar respublika tarixinin müxtəlif problemləri ilə bağlı ayrı-ayrı vaxtlarda imzaladığı sərəncamlardan, bu sərəncamların icrası ilə əlaqədar təsdiq olunan tədbirlər planlarından irəli gələn və qarşıda duran vəzifələrdən bəhs edən məqalələr də daxil edilmişdir. Həmin məqalələrdə 2012-ci ilin Naxçıvan Muxtar Respublikasında "Milli dəyərlər ili" elan olunmasından, "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında", "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında", "Nuh Peyğəmbər: dünya tufanı və Naxçıvan" mövzusunda Beynəlxalq Simpoziumun keçirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin yaradılması haqqında", "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda Beynəlxalq Simpoziumun keçirilməsi haqqında", "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda Beynəlxalq Simpoziumun keçirilməsi haqqında", "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə" sərəncamlardan, bu sərəncamlarla əlaqədar qarşıda duran vəzifələrdən, görülmüş və görüləcək işlərdən, onların əhəmiyyətindən bəhs olunmuşdur.

Kitabda milli kimliyimizin əsas göstəricisi kimi milli dəyərlərimizə ulu öndər Heydər Əliyev tərəfindən daim diqqət yetirilməsi, qorunması və inkişaf etdirilməsi sahəsində əldə olunan uğurların müasir şəraitdə Prezident İlham Əliyevin uğurla davam etdirdiyi göstərilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə muxtar respublikada ulu öndər Heydər Əliyevin dövlətçilik təlimi və siyasi irsinin müvəffəqiyyətlə icra edildiyi elmi şəkildə əsaslandırılmışdır.

Əsərdə "Heydər Əliyevin dövlətçilik təlimi və müasir dövr" və "Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə" monoqrafiyaları təhlil edilmiş, bu əsərlərin Əliyevşünaslıqda tutduqları yer və onların əhəmiyyəti əsaslandırılmışdır.

***AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərli Azərbaycanın orta əsrlər tarixinin öyrənilməsi üzrə respublikamızda tanınan nüfuzlu və ciddi tədqiqatçılardan biridir. Son illərdə onun ulu öndər Heydər Əliyev haqqında, Naxçıvanın müxtəlif dövr tarixi ilə bağlı yazdığı elmi məqalələr alimin bu istiqamətlər üzrə də peşəkarlığından və yüksək elmi səriştəsindən xəbər verir. Haqqında bəhs olunan "Heydər Əliyev irsi – əbədiyaşar təlim" monoqrafiyası da çox zəngin materiallar əsasında yazılmış vacib və əhəmiyyətli əsərlərdən olub, Əliyevşünaslığa layiqli töhfədir. Heydər Əliyev irsi ilə, dövlətçilik təlimi ilə maraqlanan oxucular bu əsərdən faydalana biləcəklər.***

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

# Qələbə əzmli ordumuz





Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizin Qarabağ ərazisinə, Ermənistan Respublikası ilə həmsərhəd olan digər bölgələrimizə, muxtar respublikamıza, xüsusilə də Sədərək bölgəsinə düşmən tərəfindən aramsız hücumlar olurdu. Naxçıvan Muxtar Respublikasını yaranmış vəziyyətdən xilas etmək, ərazini erməni basqınlarından qorumaq, əhalini talan və qırğınlardan qurtarmaq məqsədilə 7 sentyabr 1991-ci ildə – o dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında Ali Məclisin növbədənkənar sessiyası çağırıldı və Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında tarixi qərar qəbul edildi. O dövrdə xalqımızın böyük oğlu Heydər Əliyevin muxtar respublikamızda ordu quruculuğu istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər blokada şəraitində yaşayan Naxçıvanı düşmən hücumlarından qorumaqla yanaşı, bütövlükdə, müstəqil Azərbaycanda milli ordu quruculuğu prosesinin başlanğıcı oldu. 1992-ci il iyul ayının 21-dən avqust ayının 15-dək Naxçıvanın ərazisində yerləşən keçmiş SSRİ-nin silahlı qüvvələrinin 75-ci motoatıcı diviziyasının bütün döyüş texnikası, silah-sursatı, yaşayış binaları və digər maddi-texniki vəsaitləri saz vəziyyətdə Müdafiə Komitəsinin bazasına təhvil verildi. 15 sentyabr 1992-ci ildə Müdafiə Komitəsinin bazasında 5-ci əlahiddə gücləndirilmiş motoatıcı briqada yaradıldı. Həmin briqada motoatıcı diviziyaya, daha sonra Ordu Korpusuna, 2013-cü ildə isə Əlahiddə Ümumqoşun Ordusuna çevrildi.

Azərbaycanda güclü, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqillik tariximizi araşdırarkən bir həqiqət öz təsdiqini tapır: Azərbaycanda dövlət və ordu quruculuğu prosesinə ulu öndərimizin rəhbərliyi ilə Naxçıvanda başlanılıb.

Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə ordu quruculuğu istiqamətində görülən işlər Naxçıvan Muxtar Respublikasında daha çox nəzərə çarpır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılır. Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin daha da artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə ölkə başçısının "Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən, 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusu yaradılıb. Bu gün Əlahiddə Ümumqoşun Ordusunun döyüş qabiliyyətinin artırılması, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, xidmətin nümunəvi təşkili, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. 2014-cü il aprel ayının 8-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubiley tədbirində iştirak edən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev qədim diyarda Əlahiddə Ümumqoşun Ordusunun yaradılması barədə danışarkən demişdir: ***"Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır. Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda əlahiddə ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir".***

Muxtar respublikamızdakı Əlahiddə Ümumqoşun Ordusunun maddi-texniki bazasının möhkəmləndirilməsi ölkə rəhbərinin daim diqqət mərkəzindədir. Azərbaycan Prezidentinin bu ilin aprel ayında Naxçıvana səfəri ərəfəsində muxtar respublikadakı hərbi hissələrə yeni, ən müasir standartlara uyğun hərbi-texniki vasitələrin və silah-sursatın verilməsi bunun parlaq ifadəsidir.

Oktyabrın 20-də Əlahiddə Ümumqoşun Ordusu üçün yeni Təlim-Tədris Mərkəzinin istifadəyə verilməsi bu istiqamətdə görülən işlərin davamıdır. Şəxsi heyətin hərbi tərbiyəsinin və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində bu cür mərkəzlərin mühüm rolu vardır.

Ordu quruculuğu istiqamətində aparılan islahatlar nəticəsində Əlahiddə Ümumqoşun Ordusunun dağ şəraitində və yüksəkliklərdə yerləşən hərbi hissə və bölmələrində də nümunəvi xidmət şəraiti yaradılıb. Oktyabrın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Soyuq bölgəsinə gələrək təmas xəttində xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə maraqlanıb, xidmətdə fərqlənən hərbi qulluqçuları qiymətli hədiyyələrlə mükafatlandırıb. Ali Məclis Sədrinin muxtar respublikamızın çətin dağlıq ərazilərində xidmət edən hərbi qulluqçularla görüşü şəxsi heyətin mübarizə əzmini, vətənpərvərlik hisslərini daha da artırır. Bu gün dövlətin və xalqın dəstəyini daim öz üzərində hiss edən şəxsi heyət xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlir. Ona görə də Soyuq bölgəsində xidmət edən əsgərlərimiz yüksək nizam-intizama və döyüş qabiliyyətinə malikdirlər. Şəxsi heyətin yüksək əhval-ruhiyyədə olması yaradılan şəraitin və xidmətin düzgün təşkilinin nəticəsidir.

Naxçıvan Muxtar Respublikasının hakim yüksəkliklərində etibarlı müdafiə sistemi yaradılıb. Bu yüksəkliklərdə peşəkar və yüksək döyüş hazırlığına malik əsgər və zabitlərimiz xidmət edirlər. Təmas xətti boyunca etibarlı əməliyyat mövqeyinin təmin edilməsi, hərbi intizamın daim möhkəmləndirilməsi, şəxsi heyətin peşəkarlığının artırılması diqqət mərkəzində saxlanılır. Dayaq məntəqələri və postlar müasir döyüş texnikaları, artilleriya qurğuları və atıcı silahlarla təmin olunub. Döyüş növbətçiliyini aparan şəxsi heyətin istifadəsində olan cihazlar isə ən çətin hava şəraitində belə, qarşı tərəfin mövqelərinin müşahidə edilməsinə imkan verir.

Bu gün Azərbaycan Respublikası regionun ən güclü ordusuna sahibdir. Bütün bunlar isə Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazasının və şəxsi heyətin mənəvi-psixoloji durumunun, döyüş qabiliyyətinin yüksək səviyyədə olmasının nəticəsidir. Təbii ki, Azərbaycan Silahlı Qüvvələrinin bu gücə qovuşmasında xalq-ordu birliyi də mühüm rol oynayır. Çünki xalq orduya, ordu xalqa güvənib inanarsa, o zaman heç bir düşmən bizi məğlub edə bilməz.

***Döyüş hazırlığını günü-gündən artıran Əlahiddə Ümumqoşun Ordusunun şəxsi heyəti doğma Azərbaycanımızın hər parçası olan qədim Naxçıvan diyarının müdafiəsində cəsarətlə dayanıb, müstəqilliyimizin qorunmasında və ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında öz vəzifəsini şərəflə yerinə yetirir.***

**Mirqiyas RÜSTƏMOV**
***Əlahiddə Ümumqoşun Ordusunun Mənəvi-psixoloji təminat şöbəsinin rəisi, polkovnik-leytenant***

Aktual söhbət

# Naxçıvan Muxtar Respublikası bələdiyyə seçkilərinə tam hazırdır

***Dekabrın 23-də ölkəmizdə növbəti bələdiyyə seçkiləri keçiriləcək. Hələ bir neçə ay bundan əvvəl bələdiyyə seçkilərinə hazırlıq işlərinə başlanılıb və artıq bu işlər başa çatdırılıb. Naxçıvan Muxtar Respublikasında bələdiyyə seçkilərinə hazırlığın vəziyyəti və səsvermə günü seçki hərəkətləri ilə əlaqədar suallarımızı Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov cavablandırır.***

***– Məhərrəm müəllim, artıq bələdiyyə seçkilərinə sayılı günlər qalır. Seçkilərə hazırlığın vəziyyəti necədir?***

– Seçki komissiyaları seçkilərin hazırlanması prosesinə seçkilərin elan olunmasından çox əvvəl başlayırlar. Belə ki, ilk işimiz seçici siyahılarının dəqiq tərtib edilməsidir. Bu proses hər il yanvar ayından etibarən başlayır və seçicilərin daimi siyahısı hər bir məntəqə seçki komissiyası tərəfindən Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi formada hər il mayın 30-dək təsdiq edilir və səsvermə gününə azı 25 gün qalmışadək dəqiqləşdirilir. Seçkilərdən əvvəl hər kəs yaşadığı ərazidə fəaliyyət göstərən məntəqə seçki komissiyasına yaxınlaşaraq öz adının müvafiq seçici siyahısında olub-olmadığını müəyyənləşdirə bilər. Əgər seçici öz adının müvafiq seçki məntəqəsi üzrə tərtib edilmiş seçici siyahısında olmadığını aşkar edərsə, şəxsiyyət vəsiqəsini müvafiq seçki məntəqəsinə təqdim etməklə adını seçici siyahısına əlavə edə bilər. Seçici siyahılarına əsasən, muxtar respublika üzrə seçicilərin sayı 266857 nəfərdir. Onlardan 132714 nəfəri qadın, 5885 nəfəri isə ilk dəfə səs verən seçicilərdir. 2013-cü ildə keçirilmiş prezident seçkiləri ilə müqayisədə seçicilərin sayı 5885 nəfər artıb.

Dairə və məntəqə seçki komissiyalarının seçkilərə tam hazır olması üçün tələb olunan bütün işlər həyata keçirilib. Belə ki, seçki komissiyaları seçki günü üçün tələb olunan bütün avadanlıqlarla təmin olunaraq tam hazır vəziyyətə gətirilib. O cümlədən bələdiyyə seçkiləri ilə əlaqədar olaraq Mərkəzi Seçki Komissiyasının hazırladığı təlimatlar, izah və qaydalar, Seçki Məcəlləsi, nümunə protokollar və digər tələb olunan seçki sənədləri Bakıdan gətirilərək müvafiq seçki komissiyalarına paylanılıb. Həmçinin əhalinin bələdiyyə seçkiləri ilə əlaqədar maarifləndirilməsi üçün plakatlar gətirilərək şəhər, qəsəbə və kəndlərdə hər kəsin görə biləcəyi mərkəzi yerlərdə yerləşdirilib.

***– Seçki komissiyaları üzvlərinin maarifləndirilməsi ilə bağlı hansı tədbirlər həyata keçirilib?***

– Seçkilərdə dairə və məntəqə seçki komissiyaları üzvlərinin peşə hazırlığının artırılması, seçki sahəsində onların bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsi daim diqqət mərkəzindədir. Bu məqsədlə cari ilin oktyabr ayının 18-də dairə seçki komissiyalarının sədrləri üçün Bakı şəhərində müşavirə keçirilib. Bu layihənin davamı olaraq, oktyabrın 22-dən 24-dək dairə seçki komissiyalarının digər üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün həm Mərkəzi Seçki Komissiyasının iclas zalında geniş tərkibdə, həm də dairə seçki komissiyalarında rayon prokurorlarının, hakimlərin, polis rəislərinin iştirakı ilə seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar keçirilib. Həmçinin dairə seçki komissiyalarının tərkibində fəaliyyət göstərən ekspert qruplarının sədrləri olan dairə seçki komissiyalarının katibləri və işçi qruplarının sədrləri olan dairə seçki komissiyalarının baş məsləhətçiləri Bakı şəhərində keçirilən treninqlərə cəlb olunublar. Hal-hazırda dairə seçki komissiyaları məntəqə seçki komissiyaları üzvlərinin maarifləndirilməsi istiqamətində mütəmadi olaraq iş aparırlar.

***– Keçirdiyiniz seminarlarda komissiya üzvlərinə, əsasən, nələr öyrədilirdi?***

– Bu seminarların mövzuları, əsasən, seçkilərdə qarşıya çıxan praktik problemlərlə əlaqədar olub.



Seçki komissiyalarının üzvlərinə seçki günü seçki hərəkətləri, seçki sənədlərinin tərtib olunması, səslərin sayılması və səsvermənin nəticələrinə dair protokolların tərtib olunması məsələləri ən kiçik detallara qədər ətraflı izah olunub.

***– Səsvermə prosesi muxtar respublikada neçə seçki məntəqəsində aparılacaq və neçə bələdiyyə üzvü seçiləcəkdir?***

– Əvvəlki seçkilərdə olduğu kimi, builki seçkilər də muxtar respublika üzrə 7 seçki dairəsini və 292 seçki məntəqəsini əhatə edəcəkdir. Həmçinin muxtar respublikada xidmət keçən hərbi qulluqçuların və cəzaçəkmə müəssisəsində cəza çəkən məhkumların aktiv seçki hüququnun təmin olunması üçün seçkilərə 5 gün qalmış əlavə olaraq 24 seçki məntəqəsi yaradılıb.

***– Bələdiyyə üzvlüyünə namizədlər, əsasən, hansı partiyaların nümayəndələridir?***

Seçkilər Mərkəzi Seçki Komissiyası tərəfindən elan olunduqdan sonra namizədliklərin irəli sürülməsi prosesi başlayır. Builki seçkilərdə namizədliklərin irəli sürülməsi prosesində vətəndaşlar aktivlik göstərdilər. Muxtar respublika üzrə seçiləcək 1453 bələdiyyə üzvlüyünə 2179 nəfər öz namizədliyini irəli sürüb. Onlardan 2149 nəfərin namizədliyi qeydə alınıb. Namizədliklərin irəli sürülməsi prosesində siyasi partiyalar aktivlik göstəriblər. Belə ki, irəli sürülmüş və qeydə alınmış namizədlərin sırasında səkkiz siyasi partiyanın nümayəndələri təmsil olunur ki, onlardan da say etibarı ilə Yeni Azərbaycan Partiyasının nümayəndələri üstünlük təşkil edir.

YAP 1583 nəfər, BQP 80 nəfər, VHP 2 nəfər, "Ümid" partiyası 3 nəfər, ASRP 36 nəfər, BAXCP 75 nəfər, AVP 6 nəfər, MDHP 1 nəfər namizəd irəli sürüb. 363 nəfər isə bitərəf namizədlərdir.

***– Budəfəki seçkilərdə də gözəgörünməyən mürəkkəblərdən istifadə olunacaqmı?***

– Bəli, növbəti seçkilərdə də gözəgörünməyən mürəkkəblərdən istifadə olunacaq. Məntəqə seçki komissiyasının üzvlərindən biri seçki məntəqəsinə gələn hər bir seçicinin şəxsiyyətini təsdiq edən müvafiq sənədi yoxladıqdan sonra ultrabənövşəyi lampa ilə seçicinin sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsinin gözəgörünməyən mürəkkəblə işarələnib-işarələnmədiyini yoxlayır və yəqin edir ki, seçici əvvəl səs verməyib. Həmçinin seçiciyə seçki bülleteni verilərkən onun sol əlinin baş barmağının gözəgörünməyən mürəkkəblə işarələnməsi təklif olunur və izah edilir ki, əgər bu cür işarələnmədən imtina edərsə, ona seçki bülleteni verilməyəcəkdir.

***– Əgər seçici barmağının mürəkkəblənməsindən imtina edərsə bunun nəticəsi necə olacaq?***

– Əgər seçici işarələnmədən imtina edərsə, ondan seçki məntəqəsini tərk etməsi xahiş olunur və seçici siyahısında "işarələnmədən imtina etdi" qeydi aparılır.

***– Məhərrəm müəllim, seçiciləri maraqlandıran məsələlərdən biri də səsvermə günü məntəqələrdə təqdim olunan sənədlərlə bağlıdır. Seçici səs vermək üçün hansı sənədləri təqdim etməlidir?***

– Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət vəsiqəsini və ya müvəqqəti şəxsiyyət vəsiqəsini, qaçqın və məcburi köçkünlər əgər şəxsiyyət vəsiqəsi yoxdursa, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən verilmiş müvafiq vəsiqəni, hərbi qulluqçular zabitin şəxsi vəsiqəsini və ya hərbi bileti, istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslər və cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlar Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş təqsirləndirilən şəxsin və ya məhkumun şəxsiyyətini təsdiq edən müvafiq sənədi təqdim etməlidirlər.

***– Əgər seçici tələb olunan şəxsiyyəti təsdiq edən sənədi gətirməyibsə nə etməlidir?***

– Seçici tələb olunan şəxsiyyəti təsdiq edən sənədi özü ilə gətirmədikdə məntəqə seçki komissiyasının seçicinin qarşılayan və barmağının mürəkkəblə işarələnməsini yoxlayan üzvü həmin seçiciyə şəxsiyyəti təsdiq edən sənədi yoxdursa, səs verməsinin qeyri-mümkünlüyünü və tələb olunan şəxsiyyəti təsdiq edən sənədlə gəlməsini izah edəcəkdir. Seçicilər səsverməyə gələrkən şəxsiyyəti təsdiq edən müvafiq sənədi özləri ilə mütləq gətirməlidirlər. Əks halda, səsvermədə iştirak edə bilməyəcəklər.

***– Seçici səsvermə bülletenini korlayarsa, ona yeni bülleten veriləbilərmi?***

– Seçici seçki bülletenini korlayarsa, ona yeni seçki bülleteni verilə bilər. Bunun üçün o, korlanmış seçki bülletenini bülleten verən məntəqə seçki komissiyasının üzvünə qaytarmalıdır. Məntəqə seçki komissiyasının üzvü korlanmış seçki bülletenini alaraq onu yarı kəsməklə ləğv edir və korlanmış seçki bülletenləri üçün nəzərdə tutulan ayrıca zərfə qoyur. Daha sonra seçiciyə yeni seçki bülleteni verərək, onun seçki bülletenini korlaması və yenisinin verilməsi barədə seçicilər siyahısında seçicinin soyadından sağda bu barədə müvafiq qeyd edir. Hər bir korlanmış seçki bülleteni barədə ayrıca akt tərtib olunur.

***– Seçici səsvermə bülletenini doldurmaqda çətinlik çəkərsə, ona kimlər kömək edə bilər?***

– Seçki bülletenini almaq və doldurmaq üçün köməyə ehtiyacı olan seçici məntəqə seçki komissiyasının üzvləri və müşahidəçilər istisna olmaqla, aktiv seçki hüququ olan başqa şəxsə müraciət edə bilər. Seçiciyə seçki bülleteni almaqda və ya doldurmaqda köməklik edən şəxs öz inisialını və soyadını göstərməklə seçici siyahısının "seçicinin seçki bülletenini alması haqqında imza" qrafasında imza etməlidir. Bülleteni doldurmaq üçün seçici dərhal boş səsvermə kabinəsinə daxil olur. Ehtiyac olarsa, kömək göstərən şəxs onunla birlikdə səsvermə kabinəsinə daxil ola bilər.

***– Səsvermə günü müxtəlif səbəblərdən muxtar respublika ərazisində olmayan seçicilər necə səs verəcəklər?***

– Bələdiyyə seçkiləri digər seçkilərdən fərqlənir. Belə ki, hər bir seçici yalnız yaşadığı ərazidə fəaliyyət göstərən bələdiyyə üzvlərinin seçilməsi üçün səsvermədə iştirak edir. Bu baxımdan səsvermə günü ölkənin başqa yerində olan seçicinin səsvermədə iştirakı mümkün deyil.

***– Bəs bələdiyyə seçkiləri günü səhhətinə görə və ya digər üzrlü səbəblərə görə seçki məntəqəsinə gələ bilməyən seçicilər necə səs verəcək?***

– Bu kimi səbəblərə görə səsvermə günü seçki məntəqəsinə gələ bilməyən seçicilər daşınan seçki qutusu ilə səs verə biləcəklər. Həmin şəxslər səsvermə gününə azı 24 saat qalmış məntəqə seçki komissiyasına yazılı və ya şifahi formada müraciət etməlidirlər. Məntəqə seçki komissiyasının sədri bu müraciətlər əsasında siyahı hazırlayır və səsvermə günü məntəqə seçki komissiyasının iki üzvü səsvermə otağından kənarda bu şəxslərin səsverməsini təmin edir.

***– Ötən seçkilərdə bir neçə seçki məntəqəsində vebkameralar quraşdırılmışdı. Bu seçkilərdə də vebkameralardan istifadə olunması nəzərdə tutulubmu?***

– Seçki məntəqələrində vebkameraların quraşdırılması seçkilərdə aşkarlığın təmin olunmasının mühüm vasitəsidir. Naxçıvanda fəaliyyət göstərən hər bir seçki dairəsinin beş seçki məntəqəsində olmaqla, ümumilikdə, muxtar respublikada 35 seçki məntəqəsində vebkameralar quraşdırılıb və seçki günü səsvermə və səslərin hesablanması müddətində aktiv olacaqdır. Hər kəs internet vasitəsilə həmin seçki məntəqələrində səsverməni və səslərin hesablanmasını izləyə bilər.

***– Səsvermə neçə saat davam edəcək?***

– Səsvermə dekabr ayının 23-ü saat 08[00]-də başlayacaq və 19[00]-da başa çatacaqdır. Saat 19[00]-da məntəqə seçki komissiyasının sədri səsvermənin başa çatdığını elan edir və bu saatdan sonra heç bir seçici seçki məntəqəsinə səs vermək üçün buraxılmır. Həmin vaxt içəridə olan seçicilər isə səs verdikdən sonra seçki məntəqəsini tərk edirlər.

***– Səsvermə başa çatdıqdan sonra səslərin sayılmasında kimlər iştirak edə bilər?***

– Səslərin hesablanması zamanı seçki məntəqəsində yalnız məntəqə seçki komissiyasının üzvləri, yuxarı seçki komissiyalarının üzvləri, qeydə alınmış namizədlərin səlahiyyətli nümayəndələri və ya vəkil edilmiş şəxsləri, siyasi partiyaların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, beynəlxalq və yerli müşahidəçilər və qeydiyyatdan keçmiş kütləvi informasiya vasitələrinin nümayəndələri ola bilər.

***– Məhərrəm müəllim, xahiş edirik, seçki bülleteninin doldurulma qaydasını izah edəsiniz.***

– Seçki bülletenini almış seçici səsvermə kabinəsinə daxil olur və bülletendə qeyd olunan namizədlər sırasından səs verəcəyi bələdiyyə üzvlərinin sayına müvafiq sayda namizədlərin adının sağ tərəfində olan boş kvadratın içərisinə işarə qoyur. Məsələn, bülletendə 10 nəfər namizədin adı qeyd olunubdur. Əgər müvafiq bələdiyyəyə beş nəfər üzv seçilməlidirsə, o zaman seçici həmin on nəfərdən istədiyi beş nəfərin adından sağda olan boş kvadratın içində hər hansı bir işarə qoyur. Əgər seçici heç bir işarə qoymazsa və ya seçiləcək bələdiyyə üzvlərinin sayından artıq namizədi işarə edərsə, o zaman onun verdiyi səs etibarsız hesab olunacaqdır.

***– Belə demək mümkündür ki, Naxçıvan Muxtar Respublikası bələdiyyə seçkilərinə tam hazırdır.***

– Bəli, ötən müddət ərzində seçki komissiyaları səsverməni keçirilməsi üçün tam hazır vəziyyətə gətirilib. Həm seçki komissiyalarının maddi-texniki bazası, həm də komissiya üzvlərinin peşəkarlığı imkan verir ki, seçkilər azad və demokratik şəraitdə keçirilsin.

*– Müsahibə üçün sağ olun.*

Tural SƏFƏROV

## Elektron xidmətlərin tətbiqi ilə əlaqədar maarifləndirici tədbir

***Sədərək Rayon İcra Hakimiyyətinin və Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun təşkilatçılığı ilə Sədərək rayonunda "Sığorta-pensiya sisteminin mahiyyəti və bu sahədə elektron xidmətlərin tətbiqi" mövzusunda maarifləndirici tədbir keçirilib.***

Tədbiri Sədərək Rayon İcra Hakimiyyətinin şöbə müdiri Samil Kazımov açaraq vətəndaşların pensiya təminatının yaxşılaşdırılmasının dövlətimizin sosial-iqtisadi siyasətinin əsas istiqamətlərindən biri olduğunu, həyata keçirilən islahatların pensiyaçıların rifah halının yüksəldilməsinə imkan yaratdığını vurğulayıb, sığorta-pensiya sistemində informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin bu islahatların tərkib hissəsi olduğunu bildirib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Gəlirlər şöbəsinin müdiri Yaşar Məmmədov, Pensiya şöbəsinin müdiri Vaqif Rəsulov və Fərdi uçotun təşkili şöbəsinin müdiri İsmayıl Həsənov çıxış edərək sığorta-pensiya sisteminin mahiyyətindən, məcburi dövlət sosial sığorta haqlarının ödənişi, əmək pensiyalarının təyinatı və ödənişi sahələrində elektron xidmətlərin tətbiqindən danışıblar.

Vurğulanıb ki, "Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi" elektron xidməti işəgötürənlər, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və torpaq mülkiyyətçiləri tərəfindən məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi prosesini xeyli asanlaşdırıb. Bu xidmət vasitəsilə kənd yerlərində yaşayan sığortaedənlər məcburi dövlət sosial sığorta haqlarını bağlanmış müqavilələrə əsasən, yaşadıqları yerlərdə poçt şöbələri vasitəsilə də ödəyə biləcəklər.

Elektron xidmətlər içərisində avtomatlaşdırılmış pensiya təyinatı və pensiya kalkulyatoru xidməti xüsusi yer tutur. Avtomatlaşdırılmış pensiya təyinatı sistemi sayəsində pensiya hüququ yaranmış vətəndaşa fondda yaradılan pensiya təyinatı xidmətinə – (+99436) 550-59-79 nömrəsinə zəng edərək şəxsiyyət vəsiqəsinin nömrəsini bildirməklə real vaxt çərçivəsində pensiya təyin olunur və ona pensiyasının məbləği, plastik pensiya kartını alacağı bank şöbəsinin ünvanı bildirilir.

Qeyd olunub ki, bu günə kimi yaşa görə əmək pensiyasının avtomatlaşdırılmış qaydada təyinatı sisteminin tətbiqi nəticəsində 17 nəfərə bu sistem vasitəsilə pensiya təyin edilib. Həmçinin fondun saytının "Elektron xidmətlər" bölməsinə elektron imza ilə daxil olan vətəndaş pensiya kalkulyatoru bölməsinə daxil olaraq öz pensiyasını hesablaya bilər.

Çıxış edənlər bildiriblər ki, "Sığortaolunanın onlayn uçota alınması" elektron xidməti vasitəsilə yeni əmək fəaliyyətinə başlayan vətəndaşlar üçün "Q3" ərizə formasını dolduraraq təsdiq edilməklə onların sosial sığorta şəhadətnaməsinin rəsmiləşdirilməsi prosesi elektron qaydada həyata keçirilir.

Digər aktiv xidmətlərdən biri olan "Sığortaolunanlara məlumatların verilməsi" xidmətindən istifadə etməklə istənilən sığortaolunan onun üçün işəgötürən tərəfindən hər ay üzrə ödənilən məcburi dövlət sosial sığortası barədə məlumatları maneəsiz əldə edə və illər üzrə öz pensiya kapitalını izləyə bilər.

Sədərək rayonunda sığorta-pensiya sistemində elektron xidmətlərin tətbiqi ilə bağlı görülən işlər barədə fondun Sədərək Rayon Şöbəsinin müdiri Yaqubəli Vəliyev tədbir iştirakçılarına məlumat verib.

Sonda elektron xidmətlərin tətbiqi ilə əlaqədar slayd nümayiş olunub, tədbir iştirakçılarının sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# “Muxtariyyət ili”nin quruculuq ərməğanları

## Müasir təhsil ocaqları



Naxçıvan şəhər 11 nömrəli tam orta məktəb



Ordubad rayon Aşağı Əylis kənd tam orta məktəbi



Babək rayon Cəhri kənd 1 nömrəli tam orta məktəb



Şərur rayon Axura kənd tam orta məktəbi



Şərur rayon Dizə kənd tam orta məktəbi



Culfa rayon Əlincə kənd tam orta məktəbi



Şahbuz rayon Nursu kənd tam orta məktəbi



Şahbuz şəhər 2 nömrəli tam orta məktəb



Babək rayon Qahab kənd tam orta məktəbi

***Hər hansısa bir regionun inkişafı, ilk növbədə, o yurdun təhsilli insanlarından asılıdır. Əgər təhsilli insanlar, mütəxəssislər varsa, bütün sahələrin inkişafına nail olmaq mümkündür. Sevindirici haldır ki, bu gün Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı prioritet istiqamət təşkil edir. Regionumuzda 1995-2014-cü illərdə bütün sahələr kimi, təhsil sahəsi də əsl intibaha qovuşub. Son illər yeni inkişaf yoluna qədəm qoyan muxtar respublikamızda təhsil sahəsinə də böyük qayğı göstərilir. Müasir tələblər səviyyəsində inşa olunan təhsil müəssisələri bu sahənin inkişafına yeni üfüqlər açır.***

***Məktəb tikintisi təkcə Naxçıvan şəhəri və ya rayon mərkəzləri ilə məhdudlaşmır, həmçinin ucqar dağ və sərhəd kəndlərində də ən müasir tələblərə cavab verən, gələcəyə hesablanmış yeni məktəb binaları tikilir. İstifadəyə verilən məktəblərin hər birində müasir texniki avadanlıqlar quraşdırılıb, kitabxanalar, idman zalları, fənn kabinələri, laboratoriyalar yaradılıb, müasir kompüter dəstləri müəllim və şagirdlərin ixtiyarına verilib. “Muxtariyyət ili”nin ötən dövründə Naxçıvanda 15 məktəb binası tikilərək və ya əsaslı təmir edilərək istifadəyə verilib.***

## “İstedadlar sorağında” müsabiqəsinin yekun konserti olub

***Dekabrın 19-da Naxçıvan Dövlət Filarmoniyasında Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş “İstedadlar sorağında” adlı bədii özfəaliyyət kollektivlərinin muxtar respublika baxış-müsabiqəsinin yekun konserti olub. Tədbirin aparıcısı bildirib ki, 15 günə yaxın davam edən baxış-müsabiqə ictimaiyyət tərəfindən maraqla qarşılanıb, yeni istedadların üzə çıxarılması baxımından əhəmiyyətli olub.***

Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm naziri Sarvan İbrahimov çıxışında qeyd edib ki, bu il muxtar respublikamız üçün çox əlamətdar ildir. “Muxtariyyət ili” kimi bu il həm də mədəniyyət sahəsində əlamətdar hadisələrlə də yadda qalacaqdır. Bu gün keçirilən yekun konsertində “İstedadlar sorağında” müsabiqəsinin qalibləri iştirak edəcəklər. Baxış-müsabiqə həm də onu göstərdi ki, muxtar respublikamızda mədəniyyət və xalq yaradıcılığı sahələrinə göstərilən dövlət qayğısı sayəsində xeyli istedadlı gənclər yetişdirilib.

Sonra nazir baxış-müsabiqənin qaliblərinə diplomlar təqdim etdi və onlara uğurlar arzuladı.

İlk olaraq səhnəyə çıxan Sədərək Rayon Mədəniyyət Evinin Nağaraçalanlar Ansamblının ifa etdiyi “Azərbaycan ritmləri” alqışlarla qarşılandı. Qeyd edək ki, bu ansambl instrumental ifaçılıq üzrə I dərəcəli diploma layiq görüldü.

Xalq və bəstəkar mahnıları üzrə Məqsəd Hacıyevin ifası (I dərəcəli diplom), rəqs ifaçılığı üzrə Kəngərli Rayon Mədəniyyət Evinin uşaq yallı kollektivinin çıxışı (I dərəcəli diplom) baxış-müsabiqənin janr müxtəlifliyini bir daha təsdiq etdi.

Baxış-müsabiqənin yekun konserti göstərdi ki, muxtar respublikamızda istər xalq yaradıcılığı, istərsə də incəsənətin başqa sahələrində istedadlı ifaçılar və özfəaliyyət kollektivləri çoxdur. Elsevər Məmmədov (II dərəcəli diplom), Firdovsi Səfərov (II dərəcəli diplom), Coşqun Hüseynov (III dərəcəli diplom), Fərman Allahverdiyev (III dərəcəli diplom), Əfqan Məmmədov (III dərəcəli diplom), Hüseyn İsmayılov (III dərəcəli diplom) və başqalarının ifaları alqışlarla qarşılandı.

Rəqs ifaçılığı sahəsində də istedadlı rəqqas və bədii özfəaliyyət kollektivlərinin ifaları maraqla qarşılandı. Səriyyə Rəhimlinin, Gülnar Qasımovanın (III dərəcəli diplomlar) ifa etdikləri milli rəqslər, folklor kollektivlərindən Çərçiboğan kənd mədəniyyət evinin uşaq yallı kollektivinin (II dərəcəli diplom) çıxışları yaddaqalan oldu.

Sonda baxış-müsabiqənin gedişində fərqlənən, yekun konsertində çıxış etməyən digər istedadlı iştirakçılar isə fəxri fərmanlarla təltif edildilər.

**Əli RZAYEV**

### İtmişdir

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ordubad Rayon Şöbəsi tərəfindən Babayev İlham Məhərrəm oğluna verilmiş NZ-4916219 nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonunun Püsyan kənd sakini Zeynalov Yasin Vəli oğlunun adına verilmiş AZ-85-T-446 nömrəli dövlət nişan nömrəsi itdiyindən etibarsız sayılır.

* * *

Novruzov Zülfəli Baxşəli oğlunun adına Naxçıvan Regional Peşə Tədris Mərkəzi tərəfindən 7 may 2012-ci il tarixdə verilmiş 000747 nömrəli diplom itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səyyar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 1059